

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 66 (23.478)

*8 may 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva modul tipli xəstəxana kompleksinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma tibb müəssisəsində yaradılan şərait barədə məlumat verilərək bildirilib ki, paytaxtda istifadəyə verilən modul tipli ilk xəstəxana kompleksinin tikinti və quraşdırma işləri 3 həftə ərzində tamamlanıb. Sahəsi 3000 kvadratmetr olan bu kompleks 1 saylı Kliniki Tibbi Mərkəzin nəzdində fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev həkimlərin fəaliyyətini bir daha qeyd edərək böyük fədakarlıq, qəhrəmanlıq göstərdiklərini vurğulamış və onlara uğurlar arzulamışdır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün "Mir" televiziya kanalına müsahibə verib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 7 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır.

**Abdullayev Sərxan Qəhrəman oğlu**
**Eyvazov Anar Əli oğlu**
**Əhmədov Əhməd Ural oğlu**
**Hacıyev Ümüd Səyyad oğlu**
**Qurbanov Cahangir Vahid oğlu**
**Nəbiyev İbad Fərrux oğlu**
**Rzayev Vüsal Elman oğlu**
**Süleymanlı Ceyhun Təvəkkül oğlu**
**Şeyxov Nizami Hüseyn oğlu**
**Şirəliyeva İlhamə Şərbətəli qızı**

## Ümummilli liderin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilib

***Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin kollektivinin iştirakı ilə videobağlantı formatında keçirilən tədbirdə daimi nümayəndəliyin rəhbəri Baxtiyar Əsgərov ulu öndər Heydər Əliyevin keçdiyi böyük, şərəfli, zəngin və mənalı ömür yolundan, ictimai və siyasi fəaliyyətindən bəhs edib. O, müasir müstəqil Azərbaycanın qurucusuna çevrilən ulu öndərin əvəzsiz irsinin Azərbaycan xalqının milli sərvəti olduğunu diqqətə çatdırıb.***



Qeyd olunub ki, xilaskarlıq missiyası ümummilli liderimizin genişmiqyaslı fəaliyyətinin birmənalı olaraq əsasını təşkil edib. Heyrətamiz idarəçilik istedadına, mətin iradəyə və misilsiz əzmkarlığa malik ulu öndər Azərbaycanda siyasi hakimiyyətə ilk gəlişində ölkəmizi tənəzzül burulğanından çıxararaq keçmiş SSRİ məkanında belə, yaxşı tanınmayan respublikamızı qısa vaxt ərzində qabaqcıl və nüfuzlu ölkə səviyyəsinə yüksəldə bildi. Dahi rəhbər hələ ötən əsrin 70-ci illərindən başlayaraq dahiyanə uzaqgörənliklə ölkəmizin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks layihələrin həyata keçirilməsinə nail oldu. O dövrdən başlanan sürətli inkişaf dağ və sərhəd rayonlarını da öz əhatəsinə aldı, sənaye, tikinti-quruculuq və aqrar-sənaye kompleksi inkişaf etdirildi, emal və hasilat şəbəkəsi genişləndi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycanın gələcək müstəqilliyi üçün təkcə iqtisadi əsaslar yaradılmayıb, bununla yanaşı, elm, təhsil, mədəniyyət və incəsənət sahələrində də böyük nailiyyətlər qazanılıb, milli oyanışın əsası qoyulub. Bir sözlə, uzaqgörən, böyük dövlət xadimi Heydər Əliyev 1969-1982-ci illərdə ölkəmizdə yüksək iqtisadi, elmi-mədəni və milli kadr potensialı formalaşdırmaqla bugünkü müstəqil Azərbaycanın möhkəm bünövrəsini qoyub.

Çıxışda vurğulanıb ki, ümummilli liderimiz Azərbaycanın müasir simasını müəyyənləşdirib. Onun ölkəmizə hər iki rəhbərliyi dövrü, eləcə də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illər müstəqil dövlətçilik tariximizin şanlı səhifələridir. 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrildi, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımlar atıldı. Həmin dövr Azərbaycanın müstəqil dövlətçilik tarixində mühüm mərhələ təşkil edir.

Daimi nümayəndəliyin rəhbəri diqqətə çatdırıb ki, zamanın hökmü ilə Azərbaycan dövlətinə və xalqına rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürən praqmatik və xarizmatik lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəmizin müstəqillik yolu ilə irəliləyişi üçün dönüş məqamı oldu. Ulu öndərin qətiyyəti və əzmkarlığı sayəsində ölkəmiz parçalanmaqdan, vətəndaş müharibəsindən qurtuldu, Azərbaycanda milli-ideoloji birliyin təməli qoyuldu, güclü ordu yaradıldı, möhkəm və davamlı quruculuq yolu müəyyənləşdirildi, torpaqlarımızın işğalının qarşısı alındı. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin çox önəmli bir istiqamətini də doğma torpağımız olan Dağlıq Qarabağda Ermənistan işğalına son qoyulması, bu torpaqlarda Azərbaycan Respublikasının suverenliyinin təmin edilməsi üçün fəaliyyət proqramının işlənilməsi və həyata keçirilməsi oldu. Dahi liderin fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrildi. Bu gün ulu öndərin siyasi xəttini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqillik tarixinin ən parlaq səhifələri yazılır.

Baxtiyar Əsgərov qeyd edib ki, bu gün ulu öndər Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikası da davamlı inkişaf yolundadır. Ümummilli liderimiz Heydər Əliyevin ideyalarına dərin sədaqət, onun ideyalarının layiqincə davam etdirilməsi nəticəsində muxtar respublika bu gün hərtərəfli yüksəlişə, dayanıqlı və davamlı inkişafa qovuşub. Ötən illər ərzində bu qədim diyarda elm, təhsil, mədəniyyət, kənd təsərrüfatı, ordu quruculuğu və digər sahələrdə əsaslı irəliləyişə nail olunub. Naxçıvan şəhərində, rayon mərkəzlərində, eləcə də ucqar dağ və sərhəd kəndlərində müasir infrastrukturun yaradılması, yeni yolların və körpülərin salınması yaşayış məntəqələrinin simasını tamamilə dəyişib, insanlara rahatlıq və firavan həyat bəxş edib. Heydər Əliyev siyasi xətti müstəqil Azərbaycanın dünənini və bu gününü yaşadan, gələcək inkişafına etibarlı zəmin yaradan milli dövlətçilik yoludur.

Vurğulanıb ki, dahi rəhbərin ideyaları bu gün Azərbaycan xalqını yaşadan və daim irəliyə aparan, onun gələcəyini müəyyənləşdirən ideyalardır. Görkəmli dövlət xadiminin bütün həyatı Azərbaycanın əbədi müstəqilliyinə, qüdrətli dövlətçiliyinə və davamlı inkişafına həsr olunub. Nə qədər ki, qədirbilən xalqımız, Azərbaycan xalqı var, ümummilli liderimiz də daim bizimlə birlikdə, sevilərək yaşayacaq, onun ideyaları isə doğma xalqımızı daha böyük inkişafa, yüksəlişə, qələbələrə qovuşduracaq.

**AZƏRTAC**

## Müsabiqələrə sənəd qəbulu davam edir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirləri aprel ayında da davam etdirmişdir.***

Ay ərzində Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən vakant sektor müdiri vəzifəsinin tutulması üçün 1 nəfərin iştirakı ilə test imtahanı keçirilmiş, test imtahanında müvəffəqiyyət qazanaraq sertifikat əldə etmiş 1 nəfərin müsahibə mərhələsində Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın nümayəndəsi qismində iştirak edilmişdir. Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş 8 daxili müsahibədə komissiya əməkdaşlarının nümayəndə qismində iştirakları təmin edilmişdir. Ötən ay Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən ehtiyat kadrlar siyahısında olan 23 namizəddən 1-i işlə təmin olunmuşdur.

Aprel ayı ərzində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, ədliyyə orqanlarında və Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində alman dili müəllimliyi və digər vakant vəzifələrə işə qəbul üçün elan edilmiş müsabiqələrə sənəd qəbulu davam etdirilmişdir. Namizədlər müsabiqələrdə iştirak etmək üçün Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlmədən "şəxsi kabinet" vasitəsilə onlayn qaydada qeydiyyatdan keçmişlər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Yeni quruculuq ünvanları

***Yaşayış məntəqələrinin abadlaşdırılması muxtar respublikanın sosial-iqtisadi inkişafının xarakterizə edən amillərdəndir. Babək rayonunda da hər il tikinti-quruculuq işləri aparılır, insanların rahatlığı təmin olunur və kənd yaşayış məntəqələrində görülən işlər kəndlə şəhər arasındakı fərqi minimuma endirir. Cari ildə rayonun kiçik kəndlərindən olan Nəcəfəlidizədə yeni sosial obyektlər inşa olunur, Babək qəsəbəsində isə bazar tikilir.***



Sovet hakimiyyəti illərində Nəcəfəlidizə kəndinin taleyi, insanlarının həyat səviyyəsi, sosial problemləri ilə bağlı olan məsələlər nəhəng imperiyanı heç vaxt maraqlandırmayıb. Bu səbəbdən ötən əsrin sonlarına qədər neçə-neçə ailə yaxşı yaşayış, şərait ümidi ilə şəhərə, yaxud aran kəndlərinə köçməyə məcbur olub. Təhsil almaq istəyənlər isə 4 kilometr aralıda yerləşən qonşu Qahab kəndindəki məktəbə yollanıblar.

Müstəqillik əldə edildikdən sonra kəndin gələcəyi ilə bağlı əsaslı işlər görülüb, məktəb binası tikilib istifadəyə verilib. Heydər Əliyev Su Anbarının Sağ Sahil kanalı Nəcəfəlidizə kəndinin yuxarı hissəsindən keçdiyi üçün torpaqların su təminatı yaxşılaşdırılıb, insanlar əkin-biçinlə məşğul olmağa başlayıblar.

Bu ilin mart ayında isə kənddə geniş abadlıq-quruculuq işlərinin aparılmasına başlanılıb.Belə ki, burada üçmərtəbəli məktəb binası, bir neçə dövlət qurumunun yerləşəcəyi kənd mərkəzi, 200-dən çox sakinin istifadə edə biləcəyi xidmət mərkəzi inşa olunur. Kəndin qaz, rabitə və elektrik xətləri də dəyişdirilir, yol yenidən qurulur, körpü genişləndirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsi tərəfindən Babək qəsəbəsində müasir layihə əsasında bazar kompleksi də inşa olunur. Burada ərzaq və telefon mağazaları, qadın və kişi dərzisi, bərbəri, baytarlıq apteki, təsərrüfat malları üçün mağaza, sahibkarlar üçün yeməkxana otağı yaradılacaq. Bundan başqa, kənd təsərrüfatı məhsullarının yarmarkasını təşkil etmək üçün həyətdə



açıq bazar da inşa olunacaq. Bütün bunlar imkan verəcək ki, Babək qəsəbəsi və ətraf kəndlərin sakinləri ərzaq məhsullarına olan gündəlik tələbatlarını uzaq məsafə qət olunmadan həll edə bilsinlər.

**Muxtar RZAZADƏ**

## *“Yaşıl texnologiya”*ların tətbiqi muxtar respublika iqtisadiyyatının innovativ əsaslar üzərində inkişafına yeni imkanlar açır



Ötən əsrin 70-ci illərindən başlayaraq dünya ölkələrində sənayenin inkişafı enerjiyə tələbatı kəskin artırmaqla yanaşı, müxtəlif təbii resursların deqradasiyasına da səbəb olmağa başladı. III sənaye inqilabının mühüm inkişaf mərhələsinə daxil olan həmin illər bir tərəfdən yeni kimya müəssisələrinin, hərbi və mülki zavod və fabriklərin yaradılmasını zəruri edir, digər tərəfdən ətraf mühitə öz mənfi təsirini göstərirdi.

İlk dövrlərdə məişət və sənaye tullantılarının, çirkab suların həcminin artması ilə müşayiət olunan bu zərər illər keçdikcə daha böyük fəsadlarla özünü göstərdi. Xüsusilə elektrik enerjisi istehsalında atom elektrik stansiyalarından istifadəyə daha çox yer verilən həmin dövrlərdə ekoloji problemlər yeni mərhələyə daxil oldu. Məhz həmin dövrdə qabaqcıl ölkələrin bir çoxunda ekologiya üzrə müxtəlif dövlət qurumları yaradılmağa başlandı və bu qurumların əsas vəzifələri ətraf mühitin mühafizəsini, insanların sağlam təbii şəraitdə yaşamasını təmin etmək idi. Bununla yanaşı, təbii sərvətlərdən ehtiyatla və düzgün istifadə getdikcə daha da aktuallaşırdı. Lakin əsas problem onda idi ki, təbiətə vurulan zərərlərin qarşısının alınmasında yeni təkliflərin dəyərləndirilməsi üçün alternativlər yox idi və bu yoxluğun səbəbi də yeni texnologiyalara olan ehtiyac idi. Belə ehtiyacların ödənilməsi isə hazırda enerji istehsalında ekoloji cəhətdən əlverişli vasitələr sayılan “yaşıl texnologiya”ların tətbiqini nəzərdə tuturdu.

Qeyd edək ki, “yaşıl texnologiya”lar təbiətdən yararlanan qurğuların hazırlanması, işə salınması və bu zaman ətraf mühit üçün tam zərərsiz və ya minimal zərərlə çalışan texnologiyalardır. Maraqlı fakt kimi onu qeyd edək ki, müvafiq hesablamalara görə, 1961-ci ildə təbii resurslara tələbat Yer kürəsinin bioloji bərpaetmə gücünün 70 faizinə bərabər idi. 1980-ci illərdə sözügedən tələbat artıq Yer kürəsinin gücünü üstələməyə başlamış və 2000-ci ildə istifadə edilən təbii resursların Yer planetinin yenidən bərpa gücünün 120 faizini təşkil etmişdir. Yəni istifadə olunmuş resursların bərpa olunması üçün əlavə olaraq, Yer kürəsindən 1,2 dəfə böyük olan əlavə Yer kürəsinə ehtiyac duyulurdu. Bugünkü vəziyyətlə bağlı əlimizdə dəqiq məlumatlar olmasa da, hazırda bir sıra ölkələrdə “yaşıl texnologiya”ların tətbiqi göstərilən problemlərin həll edilməsi yollarından ən zərurisi hesab edilir. Buna



görə də təbii resurslardan daha qənaətlə istifadə edilməsi, həmçinin ətraf mühitin qorunması məqsədilə inkişaf etmiş ölkələrdə “Yaşıl texnologiyalar” konsepsiyası irəli sürülmüşdür. Bu konsepsiyanın əsas vəzifəsi ətraf mühitin qorunmasını təmin etmək, təbii resurslardan səmərəli istifadəni nəzərdə tutan bərpa olunan enerji mənbələrindən istifadəni təşviq etməkdən ibarətdir. Təsadüfi deyil ki, mütəxəssislər 2030-cu ilədək su, Günəş, külək enerjisi kimi bərpa olunan enerji mənbələrindən istifadəyə 630 milyard ABŞ dolları həcmində sərmayə qoyulması və bu sahələr üzrə 20 milyon yeni iş yerinin açılacağını proqnozlaşdırırlar.

Bütün bunları nəzərə alaraq qeyd edək ki, müasir dövrdə enerji təhlükəsizliyi milli təhlükəsizliyin bir elementi kimi qəbul olunur. Bu gün enerji həyatımızda elə bir yerə sahibdir ki, ona yaranan ehtiyacı təmin etmədən, nəinki hər hansı bir sahənin inkişafından, hətta mövcudluğundan da bəhs etmək mümkün deyil. Yaxşı yadımızdadır ki, ötən əsrin sonlarında Naxçıvan blokadaya salınanda düşmənlərimizin ən məkrli planlarından biri də muxtar respublikaya daxil olan enerjinin qarşısını almaqla həyatın bütün sahələrini iflic vəziyyətinə salmaq istəyi idi. Lakin daxili resurslar hesabına qismən və fasilələrlə elektrik enerjisi ilə təmin olunan muxtar respublikamız qısa müddətdə xalqımızın ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində qonşu İran və Türkiyə respublikalarından idxal olunan enerji hesabına çətin vəziyyətdən çıxmağı bacardı. Sonrakı dövrlərdə isə muxtar respublikanın enerji təhlükəsizliyi ilə bağlı mühüm addımlar atıldı və bu sahədə bərpa olunan enerji mənbələrindən istifadəyə daha çox üstünlük verildi. Qeyd etmək lazımdır ki, ölkəmizin, eləcə də muxtar respublikamızın təbii-coğrafi şəraiti və iqlim qurşaqları da bərpa olunan enerji mənbələrindən istifadənin mümkünlüyünü hər zaman aktual məsələ kimi önə çıxarıb. Bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə 2004-cü ildən başlanılıb. Belə ki, həmin ildə qəbul olunmuş “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı” bu istiqamətdə mühüm strategiyanın həyata keçirilməsini şərtləndirib. Proqramda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə, muxtar respublikada orta, kiçik, mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur. Məhz bu planlaşmadan yola çıxaraq ötən 16 il ərzində muxtar respublikanın enerji sisteminin qurulmasında böyük addımlar atılmışdır. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Mövcud imkanlardan düzgün istifadənin nəticəsidir ki, həmin ildə, eyni zamanda Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə, 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları, 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olmuşdur. Görülən işlərin davamı kimi 2019-cu ildə Kəngərli rayonunda 2 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilmiş, Ordubad rayonunda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının, Kəngərli rayonunda 3 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatına görə, 2019-cu ildə muxtar respublikada istehsal olunmuş elektrik enerjisinin 55,4 faizini alternativ və bərpa olunan enerji təşkil edib. Ölkənin digər regionlarında isə bu göstərici 7,9 faiz təşkil edir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikanın əldə etdiyi bu uğur Naxçıvanı enerji idxal edən regiondan enerji ixrac edən regiona çevirmişdir. Cari il aprelin 20-də “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu məsələyə toxunaraq demişdir: ***“Naxçıvan Muxtar Respublikasında***



***tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisini alan Naxçıvan tam özünü təmin edir. Eyni zamanda da orada ixrac potensialı da yaranmışdı.”***

Təbii ki, bu sahədə yaradılan infrastruktur muxtar respublikada “yaşıl texnologiya”ların tətbiqi nəticəsində mümkün olub. 2019-cu il fevralın 22-də Kəngərli rayonunun Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyasının açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Muxtar respublikada elektrik stansiyaları qurularkən yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Çünki inkişaf edən dünyada bu texnologiyaların tətbiqi və həmin sahə üzrə mütəxəssislərin hazırlanması mühüm şərtdir”.***

*Bəli, bu gün muxtar respublikada elektrik enerjisi istehsalının digər bərpa olunan təbii mənbələr hesabına ödənilməsi diqqət mərkəzində saxlanılır. Məsələn, hazırda Culfa rayonunda əvvəlcədən müəyyənləşdirilmiş müvafiq ərazi coğrafi baxımdan muxtar respublikaya daxil olan hava kütlələrinin aktiv hərəkəti üçün ideal məkan sayıldığından burada gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması üçün işlər aparılır. Təbii ki, bu stansiyanın qurulmasında da “yaşıl texnologiya”lardan istifadə olunacaq. Bundan əlavə, bu il Naxçıvan Avtomobil Zavodunda istehsalı nəzərdə tutulan “Golfcar” tipli, eyni zamanda yeni elektromobillərin istehsalı da bu texnologiyaya əsaslanır. Bir sözlə, “yaşıl texnologiya”ların tətbiq sahələrinin genişləndirilməsi muxtar respublika iqtisadiyyatının innovativ əsaslar üzərində inkişafına yeni imkanlar açacaq.*

**Səbuhi HƏSƏNOV**

## Əkin sahələrinin su təminatı yaxşılaşdırılır



*Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları tərəfindən aprel ayında nəzərdə tutulan tədbirlər vaxtında yerinə yetirilmişdir.*

Suvarma mövsümünün mütəşəkkil keçirilməsi məqsədilə sututarlarına suvarma suyunun doldurulması davam etdirilmişdir. Hazırda su anbarlarında 191 milyon kubmetrə yaxın su ehtiyatı vardır. Bu dövrdə su istifadəçilərinə 36,8 milyon kubmetr su verilmiş, bunun müqabilində 30 min 830 hektar torpaq sahəsi suvarılmışdır. 3 kilometr suvarma və 9 kilometr təzyiqli boru xətti təmir edilmiş, 31 kilometr beton və torpaq kanal, 21,5 kilometr ara arxlar, 3 kilometr kollektor lildən təmizlənmişdir. Yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularından mühafizəsi məqsədilə 1 kilometr istiqamətləndirici bənd salınmışdır. Həmçinin 46,8 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. 5 kəhrizdə və 56 subartezian quyusunda təmir işləri davam etdirilmiş, 1 yeni subartezian quyusu qazılmış, 3 subartezian quyusunun bərpası başa çatdırılmışdır.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 700 hektar, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 270 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, Böyükdüz kəndi ərazisində 3 kilometr suvarma xətti çəkilmiş, 142 supaylayıcı hovuz hazırlanmış, 45 supaylayıcı hovuz isə quraşdırılmışdır. Türkeş kəndi ərazisində isə ana xətt üçün 1 kilometr metal boru qaynaq olunmuş, paylayıcı xətt üçün 5 kilometr müxtəlif diametrli plastik boru quraşdırılmışdır.

Yaşıllıq ərazilərin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Şahbuz rayonunda 200 metr yeni arx çəkilmiş, həmçinin Külüs kəndi ərazisində yeni nasos stansiyasının tikintisi və təzyiqli boru xəttinin quraşdırılması işləri davam etdirilmişdir.

Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində Babək rayonunun Nehrəm və Araz kəndlərində 5,7 kilometr su və 3 kilometr uzunluğunda kanalizasiya, Sədərək rayonunda 6,7 kilometr su, 710 metr uzunluğunda kanalizasiya, Kəngərli rayonunda isə 2,1 kilometr uzunluğunda su xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

***Muxtar respublikada əmlak və torpaq idarəçiliyinin müasir əsaslarla qurulması istiqamətində qarşıda duran vəzifələrin icrası 2020-ci ilin aprel ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.***

## Ötən ay 395 daşınmaz əmlak obyekti qeydiyyata alınıb

Torpaqların elektron uçotunun aparılması məqsədilə Sədərək rayonunun Sədərək kəndində planaalma işləri davam etdirilmiş, ay ərzində 1071 daşınmaz əmlak obyekti plana alınmışdır. 13 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır. Şərur rayonunun Kosacan, Xanlıqlar, Ələkli, Çəmənli, Dərvişlər və Siyaqut bələdiyyələrinin torpaqların qida maddələri ilə təminolunma kartoqramları yenilənərək aidiyyəti üzrə təqdim edilmişdir.

Aprel ayında 395 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 333 texniki sənəd hazırlanmış, yeni yaranmış 19 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 83 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. 20 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

Naxçıvan Dövlət Universitetinin xidmətin hamiliyinə verilmiş ixtisaslarında təhsil alan tələbələrlə onlayn görüş olmuş, tələbələrə “Layihələrin idarə edilməsi” mövzusunda onlayn təlim-məşğələ keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

# İki cəbhənin veteran şəhəri

## İkinci Dünya müharibəsində Naxçıvan tarixinin salnaməsindən səhifələr (1941-1945)

***1941-1945-ci illər müharibəsində azərbaycanlıların, o cümlədən naxçıvanlıların ön və arxa cəbhədə göstərdikləri qəhrəmanlıqlar və fədakarlıqlar xalqımızın mübarizə dolu tarix səhifələrinə əbədi olaraq həkk olunmuşdur. Lakin Sovet İttifaqının dağılması ilə bu insanlara olan münasibət dəyişsə də, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi ilə onlar yenidən xalqın sevimlisinə çevrilmiş, sayılıb-seçilmişlər. Heydər Əliyev siyasətinin davamçısı olan ölkə başçısı cənab İlham Əliyevin prezidentliyi dövründə də bu insanlara daim diqqət və qayğı göstərilmiş, onların qəhrəmanlıqları və fədakarlığı yüksək qiymətləndirilmişdir.***

Cəbhədə göstərdikləri şücaətə görə həmyerlilərimizdən 3 nəfər – Abbas Quliyev, Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada, Rəhim Rəhimov “Şöhrət” ordeninin bütün dərəcələrinə, 80 nəfər “Lenin” ordeninə, 105 nəfər I və II dərəcəli “Vətən Müharibəsi” ordenlərinə, 315 nəfər “Qırmızı Ulduz” ordeninə, 42 nəfər “Qırmızı Bayraq” ordeninə layiq görülmüşdür.

22 iyul 1941-ci ilin məlumatına görə, Naxçıvan MSSR-dən 6491 nəfər könüllü hərbi komissarlığa gedərək oradan cəbhəyə yollanmışdır.

Zəhmətkeşlərin təşəbbüsü ilə muxtar respublika üzrə müdafiə fonduna 1,208.600 manat nağd pul, 1.727.00 istiqraz vərəqəsi, 12 kiloqram qızıl və gümüş toplanaraq dövlət bankına verilmiş, tədarük məntəqələrinə 66,11 ton taxıl, 64,3 ton ət, 2155 kiloqram yun, 897 kiloqram yağ, 106 ton tərəvəz, 3634 cüt yun əlcək, müxtəlif geyimlər və başqa əşyalar toplanıb cəbhəyə göndərilmişdir.

Muxtar respublikanın zəhmətkeşləri “Azərbaycan kolxozçusu”, “Azərbaycan gənc pioneri” adına tank koloniyalarına müvafiq olaraq 748.796 və 410.447 manat və “Azərbaycan gənc pioneri” adına hərbi təyyarənin hazırlanması üçün isə 120.114 manat pul toplamışlar. Pul vəsaitlərinin toplanmasında Şərur rayonunun Düdəngə kənd sakini Həsən Şirəliyev, Sərxanlı kənd sakini Qaraş Mədətov fəal iştirak etmişlər. Müdafiə fonduna qadınlarımızdan Səkinə Məmmədova 3, Surə Bektaşi 3, Səkinə Rzalı 6 qızıl üzük, Leyla Rzayeva və Rübabə Talıbova hər biri 9 qram qızıl və digər qiymətli əşyalar vermişlər. Naxçıvan Muxtar Respublikasından müharibədə cəmi 29024 nəfər iştirak etmiş, onlardan 15325-i geri qayıtmamışdır.

ABŞ prezidenti Ruzvelt 24 avqust 1939-cu il tarixdə Hitler respublikasının prezidentinə və İtaliya kralına müraciət göndərərək onları Avropada sülhü müdafiə etmək üçün tədbirlər görməyə çağırır. Lakin bütün səylərə baxmayaraq, bəşəriyyəti ölüm kabusu – müharibə təhlükəsi addım-addım izləyirdi.

İkinci Dünya müharibəsi zamanı,1941-ci il iyun ayının 22-də SSRİ üzərinə təşkil edilmiş alman-faşist qoşunlarının hücum əməliyyatlarına cavab olaraq sovet vətəndaşları, bütövlükdə, ayağa qalxaraq Böyük Vətən müharibəsi cəbhələrinə yollandılar.

Böyük Vətən müharibəsinin ağır illərində Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri, minlərlə oğul və qızları könüllü olaraq döyüşən ordu sıralarına getmişlər. Hərbi komissarlıqlara könüllülərdən 5 mindən çox ərizə daxil olmuşdu. 10 min nəfərdən çox vətənpərvər “Xalq ordusu qoşunları” sıralarına dəstələrə yazıldı.

Müharibənin ilk günlərindən sərhədboyu rayonlardan başlamış Leninqrad, Moskva, Sevastopol, Odessa, Stalinqrad, Kiyev və digər şəhərlər uğrunda, Qafqaz uğrunda gedən şiddətli döyüşlərdə, Dnepr çayını döyüşə-döyüşə keçməkdə, Sovet ordusunun sonrakı hücum döyüşlərində, partizan əməliyyatlarında, Berlin uğrunda vuruşmalarda naxçıvanlı oğul və qızlar misilsiz igidliklər göstərmişlər. Sovet İttifaqı qəhrəmanları Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəcəfqulu Rəfiyev ölüm-dirim mübarizəsində böyük şöhrət qazanmışlar.

Hərbi feldşer Allahverdi Kərimov Rostov döyüşlərində şücaətinə görə



“Qırmızı Bayraq” və “Qırmızı Ulduz” ordenləri ilə təltif edilmişdir.

1942-ci ildə Qafqaz uğrunda vuruşmalarda komandir Akim Abbasov düşmənin 40-a yaxın tankını məhv etməyə nail olmuşdur.

Naxçıvanlı müəllim Əli Babayevin komandirliyi altında Çapayev adına beynəlmiləl partizan batalyonu İtaliya və Yuqoslaviya partizanları ilə çiyin-çiyinə bir ildən artıq faşistlərlə vuruşmuş, bu igidliyi ilə İtaliya Respublikasının “Gümüş medal”ı ilə təltif edilmişdir.

Buhenvald əfsanəsi Əkbər Ağayevin mətinliyi, ağır düşərgə şəraitində göstərdiyi mənəvi ölməzlik nəsillərə gözəl nümunədir. Əkbər Ağayev Buhenvald həbs düşərgəsində əsirlər arasında siyasi iş aparır, onları mübarizəyə ruhlandırırdı. Böyük Vətən müharibəsi illərində muxtar respublikanın yüzlərlə vətənpərvər qızı silaha sarılaraq Vətənin müdafiəsinə getmişdi. Onlar canlarını əsirgəmədən cəbhələrdə və partizan dəstələrində vuruşmuş, minlərlə yaralı əsgəri döyüş meydanından çıxararaq ölümün pəncəsindən xilas etmişlər. Zərifə Camalbəyova, Dilbər Təhməzbəyova, Surə Allahverdiyeva, Səkinə Səfiyeva, Səfiyyə Sultanova, Lora Abdullayeva və yüzlərlə başqaları böyük xidmətlərinə görə Vətənin yüksək orden və medalları ilə mükafatlandırılmışlar. Ön cəbhələrdə şiddətli döyüşlərin davam etdiyi bir vaxtda Naxçıvan arxa cəbhədə də əhalisi “Hər şey cəbhə üçün, hər şey qələbə üçün!” şüarı ilə işləyirdi.

Müxtəlif sənəd və materialların araşdırılmasından məlum olur ki, müharibə başlanandan az sonra “Azərbaycan kolxozçusu” “Tank dəstəsi yaratmaq fondu” təşkil edilmiş və naxçıvanlı zəhmətkeşlər də bu fondun tərkibinin zənginləşdirilməsinə öz töhfələrini vermişlər. Belə ki, sənədlərdən birində qeyd olunur: “Naxçıvan MSSR” Azərbaycan kolxozçusu” “Tank dəstəsi yaratmaq fondu”na vəsait toplanışı müvəffəqiyyətlə davam etdirilir. 1942-ci il dekabrın 22-dək respublikada “Tank dəstəsi yaratmaq fondu”na 3.346000 manat vəsait toplanmışdır ki, bunun 2.822.000 manatı dövlət bankındakı cari hesaba verilmişdir.

Bu sahədə ən qabaqcıl olan Şərur rayonunda 1.720000 manat vəsait toplanmışdır. Naxçıvan rayonunun kolxozçuları və kolxozçu qadınları bu fonda 900000 manat vəsait vermişlər.

Kolxozçu kəndlilərimiz öz şəxsi ehtiyatlarından Qızıl Ordu üçün fonda taxıl verməyi də böyük ruh yüksəkliyi ilə davam etdirirdilər. Şərurlular bu sahədə də irəlidə gedərək dekabrın 22-dək həmin fonda 5000 pud taxıl vermişlər. Naxçıvan rayonunun kolxozçuları və kolxozçu qadınları Qızıl Ordu üçün fonda 800 pud taxıl vermişlər”.

30 dekabr 1942-ci il tarixli sənəddən bəlli olur ki, artıq tank dəstəsi fonduna 5.400.000 manat vəsait toplanmışdır ki, bunun da 4.776.000 manatı dövlət bankındakı cari hesaba verilmişdir.



Şərur rayonu üzrə 2.238.425, Əbrəqunus rayonu üzrə 252.250, Culfa rayonu üzrə isə 122.000 manat dövlət bankına daxil olmuşdur. Naxçıvan MSSR-in kolxozçu kəndliləri öz şəxsi taxıl ehtiyatlarından Qızıl Ordu üçün fonda dekabrın 30-dək 8463 pud taxıl vermişdilər.

1942-ci ilin dekabrında Azərbaycan K(b)PMK-nın katibi Mir Cəfər Bağırov Stalinə məktub göndərərək bildirir: “Sizin tarixi məruzənizlə ruhlanmış, ürəkləri nemes-faşist işğalçılarına qarşı müqəddəs kinlə alovlanan və var qüvvələrini, sovet torpağını vəhşi faşistlərdən təmizləmək uğrunda qəhrəmancasına mübarizə aparan Qızıl Ordunun da möhkəmləndirilməsinə öz töhfələrini verən Azərbaycan SSR kolxozçuları və kolxozçu qadınları “Azərbaycan kolxozçusu” tank dəstəsi yaradılması üçün 81 milyon 20 min manat toplamışlar. Taxıl fonduna könüllü olaraq 140.092 pud taxıl vermişlər. Respublikanın kolxozçuları ət, yağ, pendir, yun təhvili sahəsində dövlət təəhhüdlərini vaxtından əvvəl yerinə yetirmiş və gələn ilin tədarükü hesabına avans olaraq 484.197 pud ət, 14.397 pud yağ, 20.106 pud pendir, 34.200 pud yun vermişlər. Vəsait toplanması davam edir”.

Stalin cavab olaraq Mir Cəfər Bağırova məktub göndərir və bildirir: “Azərbaycan kolxozçusu” tank dəstəsi yaradılması üçün 81 milyon 29 min manat toplamış və dövlət təəhhüdlərini yerinə yetirdikdən sonra Qızıl Ordu fonduna 140.000 puddan artıq taxıl vermiş olan Azərbaycan SSR-in kolxozçularına və kolxozçu qadınlarına mənim qardaşlıq salamımı və Qızıl Ordunun təşəkkürünü yetirin”.

1942-ci ilin sonunadək naxçıvanlı zəhmətkeşlər, ayrı-ayrı ailələr, məktəblilər bu aksiyada fəal iştirak etmişlər. Şərur rayonunun Yengicə kəndindəki “Sosializm” kolxozunun sədri, Naxçıvan MSSR Baş Soveti deputatı, ordenli Hüseyn Əliyev tank dəstəsi yaradılması fonduna 100.000 manat, Arınc kəndindəki kolxoz 105.000 manat, Cəhri kəndindəki M.C.Bağırov adına kolxozun sədri Yusif İsmayılov 100.000 manat, Çərçiboğan kəndindəki “Sovet” kolxozunun sədri Bəhmən Cəfərov və Maxta kənd Stalin adına kolxozun sədri Məmmədsalah Allahverdiyev hərəsi 60.000 manat pul vermişlər. Məktəblilər də bu fonda öz səxavətlərini əsirgəmirdilər. Siyaqut kənd məktəbinin 5-ci sinif şagirdi Əmir Hüseynəliyev 40.000 manat, 2-ci sinif şagirdi Xavər Mustafayeva 25.000 manat, Mahmud kəndindən komsomolçu qız Minayə Məmmədova 15.000 manat, şərurlu pioner Cəlil Məmmədov 20.000 manat, Düdəngə kənd pionerlərindən Musa Məmmədov 15.000 manat vermişlər.

Ümumiyyətlə, 1942-ci ilin dekabr ayının sonunda təkcə Şərur rayonundan komsomolçular “Azərbaycan kolxozçusu” tank dəstəsi yaratmaq fonduna 736.000 manat pul, 764 pud taxıl vermişlər.

Qaraçuqlular da tank dəstəsi fonduna böyük yardım göstərmişlər. Kəndin kolxoz sədri İsmayıl Həsənov 2000, ferma müdiri Qulam Səfərov, anbardar Qılınc Zeynalov, partkom Məmmədtağı Əkbərov hər biri 1000, Məşədi Heydər Qurbanov 500, Dünyamalı Səfərov 300 manat pul verməklə fonda cəmi 23.500 manat həcmində köməklik etmişlər.

Ordubad rayonunun zəhmətkeşləri Qızıl Ordunun döyüşçülərinə 850 bağlama göndərmişlər. Parağa kəndindəki Kirov kolxozundan 50, Bist kəndindən 45, Aza kənd kolxozundan 32, Biləv kənd Çkalov adına kolxozdan 40 bağlama cəbhəyə yola salınmışdır.

1943-cü ilin əvvəllərində Naxçıvan rayonunun Aşağı Leninabad kənd kolxozçuları azad edilmiş rayonların əhalisi üçün 6200 manat pul toplamışlar. O cümlədən Əmir Nəcəfov 500, Məmmədəli Bağırov 450 manat pul vermiş, Zeynalabdin Məmmədov, Muxtar İbrahimov, Hüseyn Əhmədov hər biri bir qoyun, 20 kiloqram taxıl vermişlər.

Ümumiyyətlə, müharibə dövründə muxtar respublikanın bütün zəhmətkeşləri yüksək vətənpərvərlik nümayiş etdirərək müdafiə fonduna 1 milyon 300 min manat pul, 12 kiloqram qızıl və gümüş, 500 min pud taxıl, 150 min dəst isti paltar və minlərlə sovqat vermişlər. Təkcə 1942-1943-cü illərdə muxtar respublikanın kolxozçuları dövlətə 677 min 613 pud taxıl, 165 min 970 pud ət, 6 min 760 pud yağ, 13 min 179 pud yun təhvil vermişdilər.

Özünün dostluq, yoldaşlıq ənənələrinə sadiq qalan muxtar respublikanın əməkçiləri müharibədən zərər çəkən respublikalara yardım göstərərək, 1943-cü ildə Naxçıvan MSSR-dən Stavropol kolxozçularına 483 min manat pul, çoxlu paltar və başqa əşyalar göndərmişlər.

*Bütövlükdə, İkinci Dünya müharibəsi dövründə əhalisinin çətin vəziyyətə düşməsinə baxmayaraq, əsl qəhrəmanlıq hünəri göstərmiş Naxçıvan Muxtar Respublikası bir zamanlar “dostcasına, qardaşcasına yaşamış SSRİ xalqlarına” deyil, həm də dünya ictimaiyyətinə olan borcunu yerinə yetirdi. Körpə, dilsiz-ağızsız uşaqların, belibükük qocaların, xəstələrin boğazından kəsib müharibəyə göndərdiyi nemətlərdən təkcə azərbaycanlı balaları, əsgərləri deyil, eyni zamanda erməni, cuhud, yəhudi, rus, gürcü, ukraynalı və yüzlərlə digər millətlərdən olan əsgərlər qidalanmış, o ağır illərin aclığına sinə gərmişlər. Naxçıvan yenə həmin sədaqətli, dostluğa, yoldaşlığa etibarlı olan Naxçıvandır. Arzu edərdik ki, bu gün müstəqil Azərbaycanın, ürək parçası olan Naxçıvana da dünya xalqları tərəfindən hər zaman hörmət və ehtiramla yanaşılsın, tarixi unutmasın, naxçıvanlıların bu igidlik və səxavətlərindən ibrət dərsləri götürsünlər.*

**Nəzakət ƏSƏDOVA**
***“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi***

# Teleradio jurnalistikasının peşəkarlıq keyfiyyəti yüksəldilir

***Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş dövlət proqramları və tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını aprel ayında da diqqətdə saxlamışdır.***

Qeyd edək ki, ötən ay muxtar respublikada medianın inkişafına daim qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Naxçıvan teleradiosuna 91 min manat dəyərində yeni çəkiliş və efir avadanlıqları alınmışdır.

Karantin rejiminin tətbiq olunduğu aprel ayında Naxçıvan teleradiosunun işi və məsuliyyəti daha da artmışdır. Şura tərəfindən aparılan monitorinqlərin nəticələri elektron vasitə ilə teleradiolara göndərilmiş və mütəmadi yaradıcılıq müzakirələri keçirilmişdir. Naxçıvan Dövlət Televiziyasının Mədəniyyət Nazirliyi ilə birgə layihəsi əsasında canlı efir vasitəsilə tamaşalar, konsert proqramları, muzey ekskursiyaları yayımlanmışdır.

Naxçıvan Dövlət Radiosunun aprel ayında da keçidləri yenilənmiş, rəngarəng canlı proqramlar təqdim olunmuşdur.

Ötən ay şura tərəfindən “Naxçıvanın səsi” radiosuna yaradıcı köməklik göstərilmiş, radioverilişlərin daha geniş auditoriyaya çatdırılması üçün təkliflər irəli sürülmüşdür. Qeyd olunmalıdır ki, “Naxçıvanın səsi” radiosunun ötən aylarla müqayisədə verilişlərinin dinlənmə sayı xeyli artmışdır. “Evdə oxu” adlı aksiyaya start verilmişdir.

Monitorinq müşahidələrinə əsasən qeyd edilməlidir ki, “Kanal 35” televiziyasında aprel ayında vizual görüntüsü aşağı olan materiallar proqramdan çıxarılmışdır. Ötən ay muxtar respublikamıza həsr olunmuş videomateriallarının yayımı istiqamətində 51 videomaterial televiziyada yayımlanmışdır.

Şura muxtar respublikada yayımlanan telekanalların fəaliyyətini izləmiş, təhlillər aparmışdır. Ötən ay muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında baş verən hadisələrə ölkə telekanallarının “Xəbərlər” proqramlarında da (Lider TV, İTV) yer verilmişdir. Aprelin 11-də Xəzər TV-də yayımlanan “Ənənə boğçası”nın növbəti buraxılışı Şərur rayonuna həsr olunmuşdur.

Tədbirlər planına uyğun olaraq şura sosial şəbəkələrdə Naxçıvanla bağlı yayılan məlumatların təhlilini də aparmış, bəhs edilən dövrdə sosial şəbəkələrdə Naxçıvanla bağlı 600-dən çox foto və video, həmçinin xəbər paylaşmışdır.

Şura tərəfindən həmin dövrdə sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində Naxçıvan Muxtar Respublikasında əldə edilən nailiyyətlər, diyarımızın qədim tarixi abidələri, zəngin turizm potensialı ilə bağlı mərkəzi mətbuat orqanları üçün, ümumilikdə, 23 material, 148 xəbər hazırlanmışdır.

Həmçinin şura üzvünün “Biz birlikdə güclüyük, evdə qalaq” məqaləsi *nuhcixan.az* saytında, İstanbulun *serhatbirikim.com.tr* xəbər portalında və “Balkan” qəzetində yerləşdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

***İllər öncə gözəl bir yaz səhərində hərbçi ailəsi kimi müvəqqəti yaşadığımız kənddən çox da uzaqda olmayan yaşıl dona bürünən uca dağları seyr edir, bura belə gözəldirsə, gör o dağların arxasında nələr var, – deyə düşünürdüm. O an hiss edirdim ki, qonşuluqda yaşayan qadın da dağlara baxıb sakitcə bu misraları deyir:***

*Sınıq körpü, sərhəddi-mülki İran,*
*Gülbatanı, Basarkeçər, İrəvan,*
*Qibləsidir Araz çayı, Naxçıvan,*
*Gündoğanı Arazla Kür qovşağı,*
*Cavanşirlər dastanıdır Qarabağ.*

# Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur



Hər misrada, sanki dünənini axtarır o dağların arxasında qonşuluqda yaşayan Heyran nənə. O, Şuşada dünyaya göz açmışdı. Atası qarabağlı, anası Naxçıvan torpağının qızı idi. Ana-atasının məzarından, doğma torpağından uzaqda dediyi bu dörd misra gözlərində yaşa dönür, yanağına süzülürdü.

O, hər dəfə öz elindən söhbət açardı:

– O dağların arxasında bir yurd var, ellər yaraşığı, alınmaz qala Şuşa. Orada böyüyüb boya-başa çatmışam. Şuşa mənim doğma yurdumdur. Orada buradan da gözəl sıldırım və şiş qayalar var. Şuşanın gözəl təbiəti və havası hər yay minlərlə adamı ora səsləyirdi. Hər ilin yayında istirahət etmək üçün gələr, xüsusilə Aran Qarabağın adamları İsa bulağına axışar, burada sərinləyər və dincələrdilər. Şuşaya gələn hər kəs mütləq çəmənlikləri qarış-qarış gəzib xarı bülbül axtarardı. Yurdumun dağ-daşları, meşələri, yaylaqları, dərə-təpəsi, bulaqları adamı heyran qoyardı. Şuşa alınmaz qalamız olub həmişə. Bir xəyanətə qurban getdi Qarabağın almaz qaşı. Onun gözəlliyindən doymadıq biz. Bax indi bu dayandığımız yerdən Şuşa şəhərinə 72 kilometr məsafədəyik. İnan ki, ayaqyalın gedərəm o 72 kilometr yolu, ta ki Şuşaya bir də qədəm qoya bilim. Görəsən, dünyadan köçmədən evimizi bir də görə biləcəyəmmi?

Bu gün bizi Şuşadan 28 illik bir zaman kəsiyi ayırır. Bir igidin ömrü qədər bir zaman. Şuşanı görmədən neçə nisgilli insan köçdü, şuşasız şuşalılar gəldi dünyaya. Azərbaycanın dilbər guşələrindən biri, Qarabağ xanlığının tarixi paytaxtı Şuşasız 28 il...

Ermənilərin Şuşaya son hücumu 1992-ci il mayın 7-dən 8-nə keçən gecə başlayıb. Şəhər dörd bir tərəfdən raket, top, tank və digər silahlardan şiddətli atəşə tutulub. Bundan sonra düşmən Xankəndi və Kərkicahan istiqamətlərindən piyadalarla hücuma keçib. Şəhər mayın 8-də axşamadək müdafiə olunsa da, silah-sursat və canlı qüvvə sarıdan üstün olan işğalçıların qarşısında tab gətirə bilməyib. Ermənilər əvvəlcə Şuşanı, sonra isə yaxınlıqdakı Kosalar və Şırlan kəndlərini ələ keçiriblər.

Əslində, alınmaz qala sayılan Şuşanın belə qısa müddətdə süqut etməsinin səbəblərindən biri şəhərin müdafiəsinin yetərincə təşkil olunmaması idi. Ermənistan isə Şuşa ətrafına çoxsaylı hərbi texnika və canlı qüvvə yığmışdı. Həmin döyüşlərin şahidlərinin sözlərinə görə, şəhərə hücumda 100-dək zirehli maşın və tank, 11 min canlı qüvvə iştirak etmişdi.

Erməni silahlı birləşmələrinin tərkibində hətta xaricdən gətirilmiş muzdlular da döyüşürdülər.

Şuşa işğal edilərkən burada 25 min nəfərədək azərbaycanlı – yerli əhali yaşayırdı. Şəhərin müdafiəsi zamanı 195 dinc sakin şəhid olub, 165 nəfər yaralanıb. Ermənilər tərəfindən əsir götürülərək Şuşa həbsxanasında saxlanılan 114 azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilib. Şəhərin 58 sakini itkin düşüb.

Bu qədim şəhərin tarixi bu gün də bütün varlığı ilə "Mən Azərbaycanınam!" – deyə hayqırır! Gözəlliyi ilə gözoxşayan əsrarəngiz Şuşa şəhəri Pənahəli xan Cavanşirin adı ilə bağlıdır. Belə ki, 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənahəli bəy xan elan edilir və Qarabağ xanlığını düşmən hücumlarından qorumaq məqsədilə alınmaz bir qala tikdirməyi qərara alır. 1750-ci ildə Qarabağın səfalı guşəsində, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yeni qalanın bünövrəsini qoyur. Pənahəli xan hasarın içərisində yeni binalar və özü üçün saray tikdirir. Yerli əhali bu şəhəri Pənahəli xanın şərəfinə "Pənahabad" adlandırır. Şişuclu dağlar əhatəsində yerləşən Pənahabad əvvəllər "Şişə", sonralar isə "Şuşa" adlandırılıb.

Şəhərin cənub tərəfi hündür və horizontal düzənlikdir. Bura "Cıdır düzü" adlanır. Şuşanın yerləşdiyi ərazi isə 350 hektardır. Şəhərə ancaq bir nəqliyyat yolu var idi: Ağdam-Əskəran-Xocalı-Xanbağı-Ağa körpüsü-Şuşa yolu.

Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olub. 1905-1907-ci illərdə şəhər ermənilər tərəfindən hücuma məruz qalıb və yandırılıb. 1920-ci ildə şəhərin xeyli hissəsi daşnaklar tərəfindən dağıdılıb. Məlum işğal faktı isə 1992-ci ilin mayında oldu.

Hələ Sovet hakimiyyəti illərində ermənilər tərəfindən Şuşadakı tarixi abidələrimiz dağıdılmış, laqeydlik Şuşanın iqtisadi baxımdan tənəzzülü ilə nəticələnmişdi. Şəhərin yenidən dirçəldilməsi yalnız 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra mümkün olmuşdu. Məhz ulu öndərimizin təşəbbüsü ilə şəhərin tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısını almaq üçün tədbirlər görülmüş, 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etmişdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görülmüşdür.

Ulu öndərimizin hakimiyyətdə olduğu dövrdə Azərbaycanın inkişafının qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi. Onun XX əsrin 80-ci illərinin sonlarında hakimiyyətdən uzaqlaşdırılmasından sonra xalqımızın ağrı-acılarla dolu dövrü başlandı, Dağlıq Qarabağın işğalı planı hissə-hissə həyata keçirildi və Şuşa da xəyanətin qurbanı oldu.

Ümummilli lider Heydər Əliyev Şuşanın Azərbaycan üçün müstəsna əhəmiyyətini belə səciyyələndirirdi: ***"Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".***

Çox təəssüf ki, heç bir milli tarixə və mədəniyyətə malik olmayan mənfur erməni vandalları Şuşadakı bir çox qiymətli tarixi-mədəniyyət abidələrini dağıdıb, talan edib. Bu sıraya məşhur Şuşa qalası, memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, məbədgah və məscidlər, bütövlükdə, 279 dini, tarixi və mədəni abidə daxildir. Eyni zamanda Şuşanın 25 məktəbi, 31 kitabxanası, 20 səhiyyə müəssisəsi, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriyası, turist bazası, 2 mehmanxanası, Azərbaycan Xalça Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi məhv edilib. Dağıdılan tarixi məkanlar arasında isə Xurşidbanu Natəvanın, Əbdürrəhim bəy Haqverdiyevin, Qasım bəy Zakirin, Mir Möhsün Nəvvabın, Süleyman Sani Axundovun, Nəcəf bəy Vəzirovun, Yusif Vəzir Çəmənzəminlinin, Xan Şuşinskinin, Sadıqcanın evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri və daha neçə-neçə abidə var.

Gözəl Şuşa, cənnət Şuşa. Sən də haray qoparıb murdar erməninin ayağını qoparmaq istəyirsən torpağından, o dolanbac yollarından boylana-boylana qalmısan, əzizlərini, doğmalarını soraqlayırsan. Yolunu gözləyirsən əzizlərinin, sənə doğma olan insanların. Vaqifin, Natəvanın da səbri tükənir, yad baxışlar altında dolanmaq istəmir narahat ruhları. O günə az qalıb, köksünə sancılan o yad cismi – erməni bayrağını qoparıb atacaq igid oğulların. Bax onda əlində üçrəngli, ay-ulduzlu bayraq, dilində ulu öndərimizin ***"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur"*** kəlamı ilə Azərbaycan əsgəri illərdir, Vətənindən ayrı düşən Cıdır düzündə Qarabağ atını çapıb deyəcək: – Şükürlər olsun ki, ata-baba yurdum, Vətənimin almaz qaşı, Qarabağın tacı Şuşanı əsl sahibinə qaytardıq.

*O gün gələcək! Azərbaycan xalqı buna əmindir, çünki bu xalq ən çətin gündə birləşməyi, bir yumruq olub düşmənin başına ildırım kimi çaxmağı tarixboyu bacarıb, yenə də bacaracaq. Xalqımız dövlətimizə, dövlətimiz isə xalqımıza daim dayaq olub! Bu isə əminlik yaradır ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində işğal olunmuş bütün torpaqlarımız, o cümlədən Qarabağın almaz qaşı Şuşa, şəhidlərimizin qanı ilə yoğurulan Vətən torpağı nəyin bahasına olursa-olsun, düşmən tapdağından azad ediləcək. Şuşanın üfüqlərində bayrağımız dalğalanacaq! Necə ki Cocuq Mərcanlıda, Talışda, Qızılqayada dalğalanıb düşmənin gözünə ox kimi batır. Zəfər himnimizin çalınacağı həmin gün torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhu ağ göyərçinə dönüb Qarabağımızın azad səmasında qanad çalacaq.*

**Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2020-ci ilin aprel ayında verilən elektrik enerjisinin həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3193 | 236,3 | 236,3 | 100,0 |
| 2. | Şərur rayonu | 1927 | 135,7 | 135,7 | 100,0 |
| 3. | Babək rayonu | 1574 | 112,0 | 112,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 965 | 68,6 | 68,6 | 100,0 |
| 5. | Culfa rayonu | 928 | 65,9 | 65,9 | 100,0 |
| 6. | Kəngərli rayonu | 645 | 46,4 | 46,4 | 100,0 |
| 7. | Şahbuz rayonu | 290 | 20,7 | 20,7 | 100,0 |
| 8. | Sədərək rayonu | 193 | 13,7 | 13,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 18130 | 1631,7 | 1630,9 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27845** | **2331,0** | **2330,2** | **100,0** |

**Qeyd:** Aprel ayında texniki itki nəzərə alınmaqla daxil olan 27 milyon 845 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 331 min manat olmuş, cəmi 2 milyon 330 min 200 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin aprel ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 727686 | 77691 | 77698 | 100,0 |
| 2. | Naxçıvan şəhəri | 2385307 | 261672 | 261695 | 100,0 |
| 3. | Ordubad rayonu | 1333150 | 138921 | 138931 | 100,0 |
| 4. | Babək rayonu | 2249835 | 240621 | 240632 | 100,0 |
| 5. | Sədərək rayonu | 241714 | 24531 | 24532 | 100,0 |
| 6. | Şərur rayonu | 1993155 | 206044 | 206052 | 100,0 |
| 7. | Culfa rayonu | 1092681 | 112151 | 112153 | 100,0 |
| 8. | Kəngərli rayonu | 667344 | 69675 | 69675 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5521091 | 943154 | 1101947 | 116,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16211963** | **2074460** | **2233315** | **107,7** |

### İtmişdir

Babək rayon Şıxmahmud kəndində yaşayan Qarayev Məhəmməd Yusif oğlunun adına olan JN-373 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Cəfərov Sultan Namiq oğlunun adına olan 0201094982 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Çomaxtur kənd sakini Əliyev Ədalət Yolçu oğlunun adına verilmiş JN-147 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Çomaxtur kənd sakini Əliyeva Səbinə Siyafər qızının adına verilmiş JN-139 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Nurəddin Qənbər oğlunun adına olan 1213B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə", 14493 inventar nömrəli texniki pasport və MH-0017666 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Quliyev Azər Mirəli oğlunun adına olan 0800162072 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 334